# Xocalı soyqırımı: bəşəriyyətə qarşı cinayət və ədalətin zəfəri



*Xocalı qətliamından 33 il keçir. Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, bəşəriyyət tarixinin ən qanlı hadisələrindən biridir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri sovet ordusunun 366-cı motoatıcı alayının dəstəyi ilə Xocalı şəhərində amansız qətliam törətmişdir. Xocalı faciəsi etnik təmizləmə və soyqırımı siyasətinin tərkib hissəsi idi.*

Ötən əsrin 90-cı illərində Azərbaycan imperiya buxovlarından qurtulmaq və müstəqillik yolunu seçməklə öz tarixi inkişaf kursunu müəyyənləşdirdi. Lakin ölkəmizin müstəqillik yolunda ilk addımları imperiya qüvvələri və yüz illərlə məkrli planlar həyata keçirən Ermənistanın şovinist, bədnam niyyətləri ilə üzləşdi. 1991-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzü daha da gücləndi, Qarabağda silahlı qarşıdurmalar artdı. Sovet İttifaqının dağılması ilə yaranan siyasi boşluq bu bölgədəki separatçı qüvvələri aktivləşdirdi. Xocalı 1991-ci ilin oktyabr ayından etibarən tam mühasirəyə alındı və şəhərin əhalisi hər cür humanitar yardımdan məhrum edildi. Erməni millətçi-şovinistləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə soyqırımı siyasətinin növbəti təzahürü, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş vermiş soyqırımı aktı idi. Faciənin əsas səbəblərini qeyd edərkən Xocalının strateji əhəmiyyətini, Ermənistanın bölgəni nəzarət altına alması məqsədini, Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətini həyata keçirməsini və müharibə cinayətlərini dünya ictimaiyyətindən gizlətmək üçün dinc əhalini tam məhv etmək istəyini bildirmək lazımdır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalını işğal etməyə başladı. Sovet ordusunun 366-cı motoatıcı alayı bu hücumda həlledici rol oynadı. Şəhər ağır artilleriya və tanklarla atəşə tutuldu, evlər yandırıldı, qadınlar, uşaqlar və qocalar xüsusi amansızlıqla öldürüldü. Bu, beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən Cenevrə Konvensiyasına tamamilə zidd hərəkətlər idi.

Xocalı faciəsi bəşəriyyət tarixində törədilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilməlidir. Azərbaycan dövləti Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ciddi işlər görmüşdür. Bir sıra ölkələr və beynəlxalq təşkilatlar artıq Xocalı soyqırımını tanımışdır. Bu ölkələr arasında Türkiyə, Pakistan, Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Sudan və Honduras kimi dövlətlər var. Bundan əlavə, İslam Əməkdaşlıq Təşkilatı Xocalı hadisələrini soyqırımı kimi qiymətləndirmişdir. Bununla belə dünya dövlətlərinin və beynəlxalq təşkilatların əksəriyyəti hələ də Xocalı faciəsinə lazımi hüquqi qiyməti verməmişdir. Ermənistanın təcavüzkar siyasətini ört-basdır etmək istəyən bəzi dairələr bu hadisənin soyqırımı kimi tanınmasına mane olmağa çalışırlar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərlə Azərbaycanın ərazi bütövlüyü bərpa edilməklə yanaşı, Xocalı şəhidlərinin ruhun da şad oldu. Azərbaycan ordusu Ermənistanın işğal etdiyi torpaqları geri qaytararaq haqq-ədaləti bərpa etdi. Azərbaycanın əldə etdiyi Qələbə bu məsələnin beynəlxalq miqyasda daha geniş müzakirəsinə səbəb oldu. Azərbaycan dövləti Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda və beynəlxalq məhkəmələrə çıxarmaqda davam edir. Bu kontekstdə 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevin təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" kampaniyası soyqırımı cinayəti ilə bağlı dünya ictimaiyyətinin daha geniş məlumatlandırılmasına xidmət edir.

Xocalı soyqırımı Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuşdur. Əldə olunan tarixi zəfərlərlə Xocalıda həlak olanların qisası alınmışdır. Lakin Xocalı faciəsini törədən cinayətkarlar hələ də beynəlxalq məhkəmələr qarşısında cavab verməyib. Azərbaycanın haqq mübarizəsi Xocalıya ədalət bərpa olunana qədər davam edəcək.

Qeyd edək ki, Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. Bu şəhərdə üçrəngli bayrağımızın dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bütün dünyaya nümayiş etdirir.

**Bəxtiyar NƏBİYEV,**
**YAP Yasamal rayon təşkilatının sədri.**